BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2011*

UOT 94 (479.24)

# İKİNCİ BALKAN SAVAŞI AZƏRBAYCAN MƏTBUATININ DİQQƏT MƏRKƏZİNDƏ

**S.F.BAXŞƏLİYEV**
***Azərbaycan Müəllimlər İnstitutu***
***baxsaliebsamir@yahoo.com***

*Türkiyə ilə Azərbaycanın tarix boyu sıx əlaqələri məlumdur. XX yüzilin əvvəllərində beynəlxalq aləmdə qüvvələr nisbətinin müəyyənləşməsinə və birinci dünya savaşının baş verməsinə güclü təsir göstərmiş Balkan savaşlarının gedişinə Azərbaycan ictimaiyyəti çox yaxından qardaş münasibəti göstərmişdir. Adı çəkilən savaşların Azərbaycan mətbuatında işıqlandırılması indiyədək bir problem kimi ayrıca tədqiqat kimi götürülüb öyrənilməmişdir. Savaşların, xüsusilə də ikinci Balkan müharibəsi ərəfəsində və gedişində Türkiyədə daxili durumla bağlı məsələlərin və ondan kənarda baş verən hadisələrin Azərbaycan mətbuatında necə işıqlandırılması məsələləri əsas diqqət mərkəzində saxlanılır.*

**Açar sözlər:** Balkan, vəziyyət, savaş, imperiya

XX yüzilliyin əvvəllərində beynəlxalq aləmdə qüvvələr nisbətinin müəyyənləşməsinə və birinci dünya savaşının baş verməsinə güclü təsir göstərmiş Balkan savaşlarının gedişinə Azərbaycan ictimaiyyəti çox yaxından qardaş münasibəti göstərmişdir (19, 140). Bu münasibət öz əksini dövrü mətbuatında da tapmışdı.

Azərbaycan-Türkiyə münasibətləri tarixində çağdaş mərhələnin hər iki ölkənin mənafeyinə uyğun şəkildə inkişafı onun əvvəlki tarixi mərhələlərini obyektiv şəkildə, yüksək elmi səviyyədə öyrənilməsini qarşıya qoyur. Bu xeyirxah işin təməli "Əkinçi" qəzeti ilə başlamışdır desək, yəqin ki, yanılmarıq (1, 49-55).

Adı çəkilən savaşların Azərbaycan mətbuatında işıqlandırılması indiyədək bir problem kimi ayrıca tədqiqat kimi götürülüb öyrənilməmişdir. Bu məqalədə biz Balkan dövlətləri ilə Türkiyə arasında münasibətlərin gərginləşməsi, ikinci Balkan savaşı və Türkiyədə daxili durumla bağlı məsələlərin Azərbaycan mətbuatında işıqlandırılması məsələlərini təhlil etməyə çalışmışıq.

Türklərin Balkanlardan, daha doğrusu, Avropadan atılmaları 1699-cu il Karlovça müqaviləsi ilə başlamışdı. Birinci Balkan savaşı sonunda bu iş, demək olar ki, başa çatdı. Ancaq buradakı Osmanlı mirasını bölüşdürmək məsələsində nə kiçik Balkan dövlətləri, nə də böyük dövlətlər razılığa gələ bilmirdilər (21, 144). Onların hər biri daha çox pay qoparmaq istəyirdi. Mübahisə Makedoniya və Albaniya üzərində gedirdi.

Serbiya, Albaniya üzərindən Adriatik dənizinə çıxırdı. Avstriya isə bunu əsla istəmirdi. Buna görə də, bu bölgədə gözü olan İtaliya ilə razılığa gəlməyə məcbur oldu və hər iki dövlət Serbiyanın Adriatik dənizinə çıxmasına mane oldu və Albaniya Avstriya ilə İtaliyanın nüfuz dairəsinə alındı. Adriatik dənizinə çıxa bilməyən Serbiya bunun əvəzində Makedoniyanın bir hissəsini tələb edirdi (1, 79).

Savaşda Bolqarıstan Trakyanı (Frakiyanı) ələ keçirərək xeyli genişlənmişdi. Beləliklə, 1878-ci il Ayastefanos (Yeşilkoy) müqaviləsində nəzərdə tutulan «Böyük Bolqarıstan» gerçəkləşmiş olurdu. Bu isə digər Balkan dövlətlərini çox narazı saldı. Serbiya və Qaradağ Makedoniyadan daha çox pay almağı özünün haqqı hesab edirdi. Rumıniya savaşda iştirak etməsə də, Dobrucanı almaq niyyətində idi. Belə ki, Rumıniya bitərəfliyinin əvəzində Dobrucanın ona verilməsini irəli sürürdü (1, 79-80). Bolqarıstanın Frakiyanı (Trakyanı) ələ keçirib Egey dənizinə çıxmasını Yunanıstan böyük bir həyəcan ilə qarşılamışdı. Beləliklə, bu narazılıqlar Balkanlarda yeni bir böhranın yaranmasına səbəb oldu. Balkan dövlətləri arasında yaranmış ixtilafı qısaca olaraq belə xülasə etmək olar: Birinci, Balkan savaşında Bolqarıstan xeyli genişlənmiş və böyük qənimət əldə etmişdi. Bu isə digər Balkan dövlətlərinin narazılığına səbəb oldu. Almaniya-Avstriya bloku Rusiyanın Balkanlarda möhkəmlənməsini istəmir və buna görə də Balkan ittifaqının dağılmasına çalışırdı. Digər böyük dövlətlər – İngiltərə, Fransa və İtaliya da Rusiyanın Balkanda zəifləməsində və Balkan birliyinin ortadan qaldırılmasında maraqlı idilər. Birinci Balkan savaşından xeyli qənimətlə çıxmış Bolqarıstan daha təcavüzkar davranaraq «Böyük Bolqarıstan» xülyasını gerçəkləşdirmək istəyirdi.

Beləliklə, öz tamahkar iddialarından irəli gələrək Balkan dövlətləri yeni bir müharibə hazırlığına girişdilər. «İqbal» qəzeti 19 may 1913-cü il tarixli sayında bu hazırlığı belə şərh edirdi (5). Bolqarıstan çarı Ferdinand gah Vyanadan, gah da Peterburqdan kömək istəyir. «Rusiya Bolqarıstana məsləhət görürdü ki, Serbiya ilə aralarında olan kəskin məsələləri sülh yolu ilə həll etsin. Buna cavab olaraq Bolqarıstan Yunanıstan və Serbiyaya qarşı müharibə etməyə ciddiyyətlə çalışır… Əhalidən buynuzlu heyvanlar, qoyun və s. alınır. Hərbi xidmətə 1914-cü ildə çağırılmalı olan şəxslər bayraq altına çağırılır…Serbiya ilə həmsərhəd olan şəhərlərdə həyəcan davam edir. Zabitlər və məmurlar ailələri ilə birlikdə Sofiyaya yola düşürlər» (6).

«İqbal» qəzetinin 21 may 1913-cü il sayında «Müttəfiqlər arasında Keşov və Paşiçin səyi» başlıqlı bir yazı dərc olunmuşdur. Londondan əldə edilmiş məlumata əsasən bu yazıda bildirilir ki, Bolqarıstan baş naziri ilə Serbiya baş naziri Paşiç Balkan İttifaqının pozulmaması üçün çox səy göstərirlər (7-№364). Bununla belə onların səyi bir nəticə verə bilmir, çünki hər iki ölkədəki ictimai fikir qızışaraq bir-birinə qarşı kəskin düşmənçilik münasibətində idi. Bolqarıstanda da, Serbiyada da müharibə arzusu gündən-günə artmaqda davam edirdi. Buna görə də, Balkan İttifaqının davam etməsi mümkün deyildi (7). Bu səylərdə hər iki hökumət başçısının o qədər də səmimi olmadıqlarını söyləmək

olar. Ona görə ki, Bolqarıstan və Serbiya arasındakı mübahisəli məsələləri silah yolu ilə həll etmək qərarı hər iki ölkədə möhkəm şəkildə qəbul olunmuşdur.

Beləliklə, Balkan İttifaqının rəsmən dağılması və Balkanlarda yeni müharibənin başlanması an məsələsi oldu. Əvvəlcə Serbiya və Yunanıstan Bolqarıstanı Makedoniyadan çıxartmaq məqsədilə öz aralarında ittifaq yaratdılar. 1913-cü il iyunun 1-də Serbiyanın Afinadakı səfiri M.Boşkoviç və Belqraddakı Yunanıstan səfiri İ.Aleksandropulos arasında Səlanikdə gizli ittifaq müqaviləsi imzalandı (18, 367). Qeyd edildiyi kimi, imzalanan bu müqavilə Bolqarıstana qarşı yönəldilmişdi. Bu müqaviləyə əsasən Makedoniyada Vardar çayından qərbdəki ərazilər bölüşdürülərək burada Serbiya–Yunanıstan sərhədi, eləcə də Albaniyada hər iki tərəfin nüfuz sahəsi müəyyən ediləcəkdi. Bu ittifaq müqaviləsi ilə bərabər hərbi konvensiya da imzalandı. Yunanıstan ilə Serbiya arasında imzalanan bu konvensiya Bolqarıstan hücum edərsə, ona qarşı birgə hərbi əməliyyat aparmağı nəzərdə tuturdu (18, 368).

Beləliklə, Balkan ittifaqının pozulmasının ilk rəsmi addımı atılmış oldu. Serb – yunan ittifaq müqaviləsi həm də ikinci Balkan savaşının diplomatik hazırlığı idi.

Serbiya və Yunanıstan arasında ittifaq müqaviləsinin imzalanması Balkan dövlətlərini Türkiyəyə qarşı savaşa təhrik etmiş olan Rusiyanın etirazına səbəb oldu. Rusiya bu dövlətlər arasında savaşın baş verməməsi üçün çox səy göstərsə də təşəbbüsündə uğurlu ola bilmədi. Tezliklə Rumıniya da Serbiya–Yunanıstan ittifaqına qoşuldu. Yuxarıda deyildiyi kimi, Rumıniya birinci Balkan savaşında bitərəfliyinə mükafat olaraq Dobrucaya iddia edir və Bolqarıstanın Balkanlarda genişlənməsini də istəmirdi.

Öz hərbi üstünlüyünə arxayın olan Bolqarıstan 29 iyun (iyunun 29-dan 30-a keçən gecə) 1913-cü il tarixində qəfildən Serbiya ilə Yunanıstanın Makedoniyadakı mövqeyinə hücum etdi (18, 369; 20; 19, 79; 8-№379). Bolqarıstan həm də Serbiya ilə Yunanıstanı savaşa hazırlıqsız yaxalamaq istəyirdi.

Bolqarıstanın qəfil hücumundan sonra Sofiyada olan Serbiya nümayəndəsi Bolqarıstan hökumətinə nota verdi. Notada deyilirdi: «Bolqarıstan müharibə elan etmədən Serbiya qoşunlarına hücum etməsi ilə bu iki dövlət arasında mövcud olan İttifaq müqaviləsini pozmuşdur. Ona görə Serbiya hökuməti bu gündən etibarən Bolqarıstan ilə siyasi münasibətləri kəsib öz səfirini Sofiyadan geri çağırır» (9). Beləliklə, ikinci Balkan müharibəsi başlanmış oldu.

«Kaspi» qəzetinin 22 iyun 1913-cü il tarixli sayında ikinci Balkan savaşının başlandığı dövrdə Balkan dövlətlərinin ordusunun miqdarı haqqında məlumat dərc etmişdir (12).

Bu məlumat xarici Avropa qəzetlərinin məlumatları əsasında hazırlanmışdı. Burada deyilirdi ki, doqquz diviziyadan ibarət olan Yunan ordusu Səlanik dairəsində yerləşib. Nəhayət, bir diviziya da Qaraferidə yerləşirdi. Almaniya və Avstriya qəzetlərinə görə Yunanıstan ordusunun canlı qüvvəsi 90-100 min nəfərdən ibarətdi. Ancaq qəzet bu rəqəmin bir qədər az göstərildiyini bildirir. Belə ki, Afinanın rəsmi qəzeti olan «Hetlia» Yunanıstan ordusunun canlı qüvvəsinin təqribən 200 min nəfərdən ibarət olduğunu yazırdı (12).

Serbiya ordusu isə üç hissəyə bölünmüşdü. Onlardan biri və ən güclüsü Vardan vadisində mövqe tutmuş və sağ cinahı ilə Gevqəlidə Yunanıstan ordusu ilə təmasda idi. Bu ordunun əsas kütləsi Kumanovo–Köprülü xəttində yerləşirdi; qərargahı isə Üsküb şəhərində idi. Ordunun canlı qüvvəsinin miqdarı təqribən 90 minə bərabərdi. Serb ordusunun 30-50 min nəfərdən ibarət olan ikinci hissəsi isə Vranya–Kratovo xəttində yerləşirdi. İkinci hissə isə təqribən 50 min nəfərdən ibarət olub, Dunayda Serb–Bolqar sərhəd xəttində yerləşmişdi. Beləliklə, Serbiya və Yunanıstan ordusu Dunaydan Orfanoya qədər Bolqarıstanın bütün qərb və cənub–qərb sərhədi boyunca zəncir xətti təşkil etmişdi. Serbiya və Yunanıstan ordusunun ümumi miqdarı təqribən 275-300 min idi. Bu iki ordunun sərəncamında isə 628 səhra topu vardı. Qüvvələrin toplaşmaq vəziyyətindən belə çıxırdı ki, Serbiya Köstendil–Sofiya istiqamətində həlledici əməliyyat keçirməyi qərara almışdılar. Yunanlar isə bolqarları cənubi–şərqi Makedoniyadan sıxışdırıb çıxartmağa çalışırdılar (12).

Bolqarıstan ordusunun canlı qüvvə miqdarı 300 mindən çox hesab edilirdi. Toplarının miqdarı isə 600 qədərdi. Bundan başqa bolqarların əlinə birinci Balkan savaşında xeyli miqdarda top qəniməti keçmişdi. Bolqar ordusu Dunayda Orfancdan Viddinə qədər bütün sərhəd boyunca yerləşdirilmişdi. Bolqarıstan Serbiya ordusunun əsas qüvvəsinə qarşı 100-120 minlik ordu çıxarmışdı (13).

Bolqarlar əsas qüvvələrini Serbiya ordusuna qarşı çıxarmışdılar. Qaradağ diviziyası da serblərin yardımına gəldi. Serblər Bolqarıstanın gözlədiyinin əksinə olaraq dərhal əks hücuma keçdilər. İyunun 30-dan iyulun 6-a qədər Breqalnitsa çayı sahilində gedən döyüşlərdə bolqarlar ağır məğlubiyyətə uğradılar (1, 576). Yunanlara qarşı olan cəbhədə də bolqarlar məğlub oldular. Andan–Niqrit xəttində üç günlük vuruşmada yunanlar bolqarlar üzərində parlaq qələbə çaldılar (10).

İyulun 10-da Rumıniya da Bolqarıstana qarşı hərbi əməliyyatlara başladı və ordusunu Sofiya istiqamətində hərəkətə keçirdi (1, 577). Beləliklə, Bolqarıstan ordusu ciddi şəkildə sıxışdırıldı.

Bu zaman iqtidarda olan İttihadçılar Ədirnəni qurtarmaq üçün hərəkətə keçməyi qərara aldılar. Bunun üçün yaranmış vəziyyət də əlverişli idi. «İqbal»ın 2 iyul 1913-cü il tarixli sayındakı «Balkanlarda müharibə» rubrikasında bildirilirdi ki, Osmanlı qoşunlarına əmr edilmişdir ki, bolqarların işğal etdikləri yerləri təzədən tutsunlar (11). Osmanlı hökuməti 1913-cü ilin 18 iyulunda rəsmən Bolqarıstana savaş elan etdi (3, 233). Türkiyə ordusunun hücumuna davam gətirməyən bolqarlar sürətlə geri çəkildilər. Polkovnik–leytenant Ənvər Bəyin başçılıq etdiyi avanqard qüvvə iyulun 22-də Ədirnəni geri aldı (14; 19, 79). Ancaq Türkiyə böyük dövlətlərin isə qarışa biləcəyindən ehtiyat edərək ordunu Məric çayında dayandırdı (16). Türkiyə hökuməti hələ 19 iyun–1 iyul 1913-cü il tarixində böyük dövlətlərə rəsmi şəkildə bildirmişdi ki, Türkiyə Ədirnəni, Qırxkilsə və Frakiyanı qaytarmaqla kifayətlənəcək və heç bir halda Məric çayını keçməyəcəkdir (11).

Ədirnənin qurtarılması çox mühüm hadisə idi. Ədirnənin mühasirəsi və qurtuluşu dövri Azərbaycan mətbuatının daim diqqət mərkəzində olmuşdu. Bu

mövzu nəinki rəsmi xəbərlərdə, eləcə də mətbuat səhifələrində çıxan bədii əsərlərdə də əksini tapırdı. «Ədirnənin qurtuluşu yüzillərin dastanlarını yaradanları bir az da küskün olan könülləri» sevindirdi (2, 50). Şair X.X.Sədribəyzadə «İqbal»ın 1913-cü ilin yanvar saylarının birində çıxan «Ədirnə» başlıqlı şeirində «Ədirnə tarixinin lirik–romantik üslubda bədii obrazını yaratmışdı» (2, 43-44). O, «Ədirnənin bədii obrazıyla türk milli ruhunu, psixologiyasını, zülmə, haqsızlığa yenilməzliyini lirik–romantik şəkildə ifadə edirdi» (2, 45). Ə.Müznib «Qazi Ənvər paşa» adlı şeirində də Ədirnəni, onun Türkiyə üçün böyük əhəmiyyətini tərənnüm edirdi (2, 49-50).

Bolqarıstanın qəti şəkildə iyulun 29-da təslim olmasından sonra sülh danışıqlarına başlanıldı. Nəticədə Bolqarıstan ilə digər Balkan dövlətləri arasında 10 avqust 1913-cü il tarixli Buxarest sülh müqaviləsi imzalandı (4, 237).

Türkiyə ilə Bolqarıstan arasında danışıqlar daha intensiv xarakter aldı. Əhməd bəy Ağaoğlunun Türkiyədən «Kaspi» qəzetinə göndərdiyi məktublarda bu danışıqlar təfsilatlı və obyektiv şəkildə şərh olunmuşdur. Bu baxımdan Ə.Ağaoğlunun «Kaspi» qəzetinin 1, 5, 13 sentyabr tarixli saylarında dərc edilmiş məktubları diqqətə layiqdir (15; 16; 17).

İkinci Balkan savaşından sonra da böyük dövlətlərdən bəzisi Türkiyəyə təzyiqdən əl çəkmək istəmirdi. Bu vasitələrdən biri maliyyə təzyiqi idi ki, bolqarlar da danışıqlarda bundan istifadə etməyə çalışırdı. Fransa hökuməti də ilk öncə maliyyə təzyiqinə tərəfdar olmaq istəmişdi. Ə.Ağaoğlu bu məsələni maraqlı şərh edərək yazırdı ki, Fransa Balkan savaşının ilk mərhələsində Türkiyənin düşmənlərinə tərəfdar olmuşdu. Belə ki, Fransa o zaman Avropanın cənubunda Balkan İttifaqının timsalında nəhəng bir qüvvənin formalaşacağını və bu qüvvənin də pangermanist cəbhəyə qarşı onunla müttəfiq olacağını ümid edirdi. İndi isə bu qüvvədən yalnız bir kölgə qalıb, o dağılaraq külü göyə sovrulub. Öz təşəkkül dövrünü belə yaşaya bilməyən bu süni ittifaq ilə müqayisədə Türkiyənin həyat qüvvəsi daşıdığı məlum oldu. Bütün bunlar Fransanı Türkiyəyə maliyyə təzyiqi göstərməkdən əl çəkməyə məcbur etdi.

Beləliklə, maliyyə boykotu ideyası uğursuz oldu. Ə.Ağaoğlu yazırdı ki, bolqarların özləri də bunu əla bilirlər. Ancaq onlar danışıqlarda Ədirnə və Frakiya kimi güzəştlərini Türkiyəyə mümkün qədər baha satmağa çalışırlar (15).

İstanbulda aparılan Türkiyə–Bolqarıstan danışıqları Türkiyə ictimaiyyətinin böyük diqqət mərkəzində idi. Bolqarıstan nümayəndələri (Nocçeviç və Savvov) öz hökumətinin tapşırığına əsasən danışıqları uzatmağa çalışırdılar. Onlar Ədirnə ilə Qırxkilsənin Türkiyənin əlində qalmasıyla razılaşdığını bildirsələr də Məriç çayının hövzəsi məsələsində söz oyununa keçirdilər. Belə ki, Məriç çayı Türkiyə üçün böyük strateji əhəmiyyət daşıyırdı. Məriç çayı Türkiyə nüfuzundan kənarda qalarsa, Bolqarıstanın təcavüz təhlükəsi real olacaqdı. Belə ki, Bolqarıstan Türkiyənin sərhəddinə təcavüz edə bilərdi. Eyni zamanda Məricin Bolqarıstan hüdudları içərisində olduğu müddətdə Ədirnə və İstanbulun təhlükəsizliyi də möhkəm olmayacaqdı. Ə.Ağaoğlu yazırdı: «Bu çaya sahib olmaq həm Bolqarıstan, həm də Türkiyə üçün olduqca əhəmiyyətli idi. Bu çayın əldən çıxması ilə Bolqarıstanın Egey dənizi ilə əlaqəsi kəsilir və

o qədər qurbanlar hesabına yenicə ələ keçirilmiş Kavala limanı isə Bolqarıstan üçün hər cür əhəmiyyətini itirir, ancaq digər tərəfdən də Türkiyə bu çay olmadan özünü təhlükəsizlikdə hiss edə bilməz; bu çay hər iki dövlət arasında təbii sərhəddir, əgər o Bolqarıstanın əlində olarsa, Ədirnə və Konstantinopolun (İstanbulun–**S.B.**) təhlükəsizliyini təmin olunmuş hesab etmək olmaz və Bolaqrıstan istənilən vaxt yenidən Türkiyəyə soxula bilər. Məhz buna görə də, Türkiyə ordusu Ədirnə və Qırxkilsəni ələ keçirdiyi vaxt Məric çayının o biri tərəfindəki Dinietok və Ortayköy kimi mühüm strateji məntəqələri də tutdu. Bu məntəqələrə yiyələnmədən Ədirnəyə yiyələnmənin mənası olmaz» (17).

Bolqarıstan nümayəndələri danışıqları uzatmaqla vaxt qazanmağa çalışır və bu yolla böyük dövlətlərin yardımına, bilavasitə müdaxiləsinə ümid edirdilər. Buna görə də Türkiyə ictimaiyyəti danışıqların sürətlənməsində və tez başa çatmasında maraqlı idi. Türkiyə tərəfindən danışıqlarda iştirak edən nümayəndələrin qətiyyətindən də çox şey asılı idi. Buna görə də, öz qətiyyətləri və vətənsevərlikləri kimi xüsusiyyətləri ilə tanınmış olan daxili işlər naziri Tələt Bəy və dövlət şurasının sədri Xalid Bəy ictimaiyyətin tələbi ilə nümayəndələr təyin edildilər (17). Bolqarlara vaxt qazanmaq, vaxtı udmaq imkanı verilməməliydi.

Burada onu da göstərmək lazımdır ki, Məric çayının o biri tərəfindəki bölgədə yaşayan müsəlmanlardan və xristian yunanlardan ibarət olan yerli əhali bolqarların qəddarlığının şahidi olmuşdu. Bu əhali qəti surətdə Bolqarıstanın hakimiyyəti altında olmaq istəmir, Türkiyənin idarəsi altında olmağı qəbul edirdi. Nəhayət, intensiv danışıqlar nəticəsində hər iki dövlət arasında sülh müqaviləsi imzalandı. Osmanlı hökuməti Balkan dövlətləri ilə ayrı-ayrılıqda sülh müqaviləsini imzaladı.

10 avqust 1913-cü il tarixli Buxarest müqaviləsinə görə Dobruca və Silistrə (Silistriya–**S.B.**) Rumıniyaya, Manastır, Üsküp, İştip və Priştine Serbiyaya; Səlanik, Serez, Drama və Dədəağac Yunanıstana verildi(4, 233).

Ikinci Balkan savaşında Bolqarıstan ağır məğlubiyyətə uğramışdı. Bu məğlubiyyətə görə o, Rusiyanı günahlandırdı. Yəni məğlubiyyətin məsuliyyətini Rusiyanın üzərinə qoydu. Gələcəkdə Serbiyadan qisas ala bilmək məqsədilə Avstriya və osmanlı dövlətinə yaxınlaşdı (4, 234).

Bolqarıstan ilə imzalanan 29 sentyabr 1913-cü il tarixli İstanbul müqaviləsinə görə Məric çayı Türk-Bolqar sərhədi kimi müəyyənləşdirildi, Ədirnə və Dimətoka Türkiyəyə verildi, Bolqarıstanda qalan türklərin hər cür din, məzhəb, ibadət hüquq və azadlıqları müqavilə ilə təminata alındı. Osmanlı dövləti Yunanıstan ilə sülh müqaviləsini 14 noyabr 1913-cü il tarixində Afinada imzaladı (4, 237). Ancaq Osmanlı hökuməti Anadolunun təbii uzantısı olan Egey adalarını Yunanıstana verməyi qəbul etmədi. Buna görə də Egey adaları məsələsinin həlli müqavilədə əksini tapmadı. İmzalanan sülh müqaviləsi Yunanıstanda qalan türklərin hüquq və azadlıqlarının təsdiq və möhkəmləndirilməsinə dair öhdəliklərdən ibarət idi. Adalar ilə bağlı məsələ böyük dövlətlərin mühakiməsinə buraxıldı. Böyük dövlətlər isə İmroz, Bozçaada, Kaş və Meis adalarını çıxmaqla yerdə qalan bütün adaları 16 dekabr 1913-cü il

tarixində, hərbiləşdirməmək şərti ilə Yunanıstana verdilər (3, 274). Serbiya ilə Osmanlı dövlətinin artıq ortaq sərhəddi yox idi. Osmanlı dövləti ilə Serbiya arasında 13 mart 1914-cü ildə İstanbulda imzalanan saziş isə tək Serbiyada qalan türklərin statuslarını əks etdirirdi (3, 275).

Türklər 1354-cü ildə Süleyman Paşanın başçılığı altında Rumeliyə keçmişdilər. Onlar beş yüz il yarım bu torpaqlarda hökm sürərək yaşamış, bu torpaqlarda yurd qurmuşdular. Osmanlı dövləti bütün Avropa ilə mübarizə edirdi. Onun Avropada, Rumelidə qalması isə qüdrətli olması ilə bağlı idi. Türklər yurd qurduqları bu torpaqlarda Osmanlı dövlətinin gücü hesabına qala bilərdilər. XVII yüzilin sonunda isə Osmanlı dövlətinin zəifləməyə doğru üz tutduğu məlum oldu. 1699-cu il Karlofça müqaviləsinin imzalanması ilə türklər Avropadan geri çəkilməyə başladılar. Türklərin Rumelini–Balkanları tərk etmələri 1877-1878-ci il Türk–Rus savaşı ilə sürətləndi və Balkan savaşı ilə başa çatdı. Bütün bunlar isə Avropa böyük dövlətlərinin birlikdə fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Birinci Balkan savaşında Türkiyə diplomatik–hərbi baxımdan təklənmiş, başda Rusiya olmaqla böyük dövlətlərin bu və ya digər himayəsinə, yardımına arxalanan Balkan dövlətləri savaşa hazırlıqsız olan Türkiyəyə var qüvvəsilə hücum etmişdilər. Balkan dövlətləri birinci savaşda qalib çıxdılar. Ancaq yenə də Balkanlardakı ziddiyyətlər, mübahisəli məsələlər, ixtilaflar ortadan qaldirilmadı. Nəticədə ikinci Balkan savaşı baş verdi. Süni Balkan İttifaqını düşmən dövlətlər əvəz etdi. Bu dəfə Balkan dövlətləri bir-birinə qarşı savaşdı. Burada başlıca təcavüzkar əvvəlki savaşdan daha çox qənimətlə çıxan Bolqarıstan idi. Türkiyə öz torpaqlarının bir hissəsini qaytarmaq üçün ikinci Balkan savaşına girdi. Torpaqlarını qaytarmaq Türkiyənin ədalətli haqqı idi. Buna görə də, keçmiş sovet tarixşünaslığı kimi bəzi baxışlarda Türkiyənin yeni Balkan savaşına qatılması və Ədirnəni geri almasının London sülh sazışini pozması kimi xarakterizə olunması obyektiv mahiyyət daşımır. Adı çəkilən sazişin şərtləri Türkiyəyə məcburi şəkildə qəbul etdirilmiş olan ədalətsiz təzyiq idi. Vətənin qurtuluşu vətəndaşların, onu qoruyan dövlətin tam ədalətli haqqıdır.

**ƏDƏBİYYAT**


1. Большая Советская Энциклопедия, Т.2, Советская Энциклопедия 1970, 632 с.
2. Elman Mustafa. Şeirimizdə Trablisqərb və Balkan savaşları. Xəzər Universitetinin mətbəəsi, Bakı, 2007, 53 s.
3. Enver Ziya Karal. Osmanlı Tarihi, C. 8, Türk Tarih Kurumu Yayınları, Ankara, 1983, 521 s.
4. Yılmaz Öztüna. Başlanğıcından Zamanımıza Kadar Türkiye Tarihi. C. 3, Hayat Yayınları, İstanbul: 1965, 279 s.
5. «İqbal» 19 may 1913, № 362
6. İqbal» 20 may 1913, № 363
7. «İqbal» 21 may 1913, № 364
8. «İqbal», 1 iyul 1913, № 379.
9. «İqbal» 26 iyun 1913, № 395.
10. «İqbal» 27 iyun 1913, № 396
11. «İqbal» 2 iyul 1913, № 400

12. «Каспи», 22 июня 1913 г., №139
13. «Каспи», 24 июня 1913 г., № 140
14. «Каспи», 5 июля 1913 г. № 164
15. «Каспи»,1 сентября 1913 г., № 196
16. «Каспи», 5 сентября 1913 г., № 199
17. «Каспи», 13 сентября 1913 г., № 206
18. Ключников И.В., Сабанин А.В. Международная политика новейшего времени: В договорах, нотах и декларациях, ч. 1, От французской революции до империалистической войны. ч.1, М.: ЛИТИЗДАТ, 1925, 741 с.
19. Советская Историческая Энциклопедия, Т.8, М.: Советская Энциклопедия, 1975, 712 с.
20. Http://www.İzafer.com/savaşlar-ve-serefler/54653-balkan savaşları: html;
21. Trablusqarp və Balkan savaşları Öngununde Girit Sorunu Kuzey Azerbaycan Basınında. Bilimsel Eksen Uluslararası Hakemli Sosial Bilimlep dergisi. 4 sayı. Анкара. 2011.

## ВТОРАЯ БАЛКАНСКАЯ ВОЙНА В ЦЕНТРЕ ВНИМАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ПЕЧАТИ

**С.Ф.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В статье исследуются вопросы отражающие отношения между Турцией и Балканскими государствами в периодической печати Азербайджана накануне второй Балканской войны и в ходе его. Османское правительство после поражения в ходе первой Балканской войны старалось исправить свое трудное международное и внутреннее положение и с этой целью проводило соответствующую политику, чтобы окончательно не подорвать свой авторитет перед народами Ближнего Востока и мировом масштабе, в целом. Периодическая печать Азербайджана того времени на своих страницах ежедневно старалась следить за событиями второй Балканской войны. Газеты под разными рубриками издавали хронику событий, авторские письма и др. сообщения.

**Ключевые слова:** Балканы, ситуация, война, империя

## THE SECOND BALKAN WAR IN THE SPOTLIGHT OF THE AZERBAIJAN PRESS

**S.F.BAKHSHALIYEV**

### SUMMARY

The paper investigates questions reflecting the relations between Turkey and the Balkan states in the press in Azerbaijan before the second Balkan war and during it. The Ottoman Empire after its defeat in the Second Balkan War, tried to fix its difficult international and domestic political situation and pursued appropriate policies in order not to undermine its credibility before the peoples of the Middle East and globally as a whole. The bodies of the periodical press in Azerbaijan tried to follow the events of the Balkan war. Newspapers published chronicles of events, letters and other messages under various headings.

**Key words:** Balkan, situation, war, empire.